# A.S. PUŞKIN



# QARACЬLAR

A Z Ə R N Ə Ş R
Bədii-ədəʙijjat şə'ʙəsi
B a k ь — 1 9 3 7

A. S. PUSK[illegible]

Cevi[illegible]

# QARACЬLAR

POEMA

AZƏRNƏŞR
Bədii-ədəвijjat şə'вəsi
Вакь-1937

Qaracьlar kyjly bir izdihamla,
Bessarabijada cьqmьşlar jola.
Bugyn caj ystydyr dyşdykləri jer,
Jьrtьq cadьrlarda geçələjirlər.
Bir azadlьq kibi şendir gөjlərin
Altьnda bunlarьn sakit və dərin
Juquja dalmasь. Xalca asьlmьş
Araba ystyndən: kylfət jьqьlmьş;
Nahar hazьrlajьr devrə vuraraq.
Carxlar arasьnda janьr bir oçaq.
Qarşьda parlajьr şehli bir cajьr,
Orada jorulmuş atlar otlajьr.
Azad əl ajьsь halь-halьnda,
Uzanmьş rahatça cadьr dalьnda.
Jarьn jaqьn jola hazьrlaşan bu
Sakit, dinç kylfətin bytyn qajqusu,
Coçuq baqьrtьsь, qadьn nəqməsi,
Səjjar zindanlarьn gurlajan səsi,
Nə qədər çanlьdьr, bu cөldə bilsən...
Iştə bu kөcəri tabor ystyndən
Bir rө'ja sykutu kecinçə dərhal,
Cөlyn sykutunu ejləjir ixlal,

Bir at kişnəməsi, kөpək hyrməsi;
Artьq taborun da kəsilmiş səsi.
Artьq hər tərəfdə kecmişdir odlar,
Dərin bir səssizlik, sejrək bulutlar
Icindən syzylyb qəmərin nuru,
Parladьr gөjlərdən sakit taboru.

Fəqət bir cadьrda jatmajьr qoça
Qarşьda getdikçə sөnən bir oçaq
Isidib çanьnь son hərarətlə,
Uzanan cөllərə baqьr diqqətlə.
Onun çavan qьzь gəzməjə getmiş,
Azad dolaşmaƣь bir adət etmiş...
O gələr; geçədir; aj da tutuldu;
Girdi bulutlara, gөrynməz oldu.
Zemfira gəlməmiş, gəlməmiş hənuz,
Oldu ixtijarьn xөrəji bumbuz.

Budur gəlir, gəlir. Izinçə ançaq,
Bir gənç tə'qib edir onu qoşaraq;
Bu gənç ixtijara tanьş dejildir.
Zemfira ansьzьn: «Ataçan!—dejir—
Bu qonaƣь tapьb gətirmişəm mən
Təpə dalьndakь dyzdə gəzərkən.
Bizimlə burada qalmaq istəjir,
O da bir qaracь olmaq istəjir.
Onu tə'qib edir hər jerdə qanun;
Mən də rəfiqəsi olaram onun.
Adь Aleqodur; bilirəm hətta
Arqamça qoşmaƣa hazьrdьr o da».



Q o ç a

Coq şadam. Bizimlə səhərədək qal,
Geçəni jatьb da, jornuƣunu al.
Jaxud istər isən qal həmişəlik
Bu jurda bizimlə olarsan şərik.
Jurd et cadьrьmь, sajəbanьmь;
Mən də cөrəjimi, gyzəranьmь.
Hazьram səninlə təqsim etməjə
Sənə var-joqumu fəda etməjə.
Bizim ol, bir jerdə calьş bizimlə,
Azad joqsulluƣa alьş bizimlə.
Dan jeri aƣarьr-aƣarmaz səhər
Biz bir arabada edəriz səfər;
Sən də istədijin sənətlə uƣraş,
Istərsən dəmir dөj, istərsən dolaş
Ajilə kəndləri, ja şərqi oqu.

A l e q o

Qalьram!

Z e m f i r a

Mənimdir, mənim, Aleqo!
Mymkyndyrmy onu məndən ajьrmaq?
Lakin kecdi geçə... jatmalь artьq.
Byrydy ətrafь bir kor qaranlьq,
Gөjdə nə aj gylyr, nə ulduz gylyr.
Gөzymdən bir şirin juqu tөkylyr...

Səhərdir. Jerindən qalqьb javaşça.
Cadьrьn başьna dolanьr qoça.
«Zemfira, qalq, ojan səhər acьldь,
Qalq, əziz qonaqьm, şəfəq sacьldь.
Coçuqlar, jetişir bu nazlь ujqu!»
Iştə xalq icində vəlvələ qopdu,
Cadьrlar jьqьlьb, arabalar da
Hərəkət etməjə durdu kənarda;
Hər bir şej tərpəndi jerindən baqьn
Cөldə dalqalanьb jyryjyr aqьn:
Artьq səbətlərdə birər-ikişər
Ojnaq coçuqlarь daşьr eşşəklər.
Bir jolu izləjir qoçalar, jaşlar[1],
Kişilər, qadьnlar, qьzlar, qardaşlar,
Gurultu, patьltь, cəngi nəqməsi,
Ajь nəriltisi, zənçirin səsi.
Qoju, ala-bəzək çьrьmçьndьrlar,
Bədənləri cьplaq coçuq, ixtijar;
Qalqьr dalqalanьr hamьnьn səsi,
Təkər qьzьrtьsь, it hyryşməsi.
Hamsь tutqun, vəhşi, hamsь nizamsьz,
Hamsь da olduqça çanlь, aramsьz.
Bu şad, bu sərgərdan həjata ançaq
Bizim—dirilikdən bysbytyn uzaq—
Lətafətlərimiz, qullarьn açь
Jeknəsəq nəqməsi kibi jabançь.

Bir tutqunluq cөkyb gənçin rənginə
Hyznlə dalmьşdь boş bir ənginə.

[1] Gənçlər.



Dərdinin səbəbi өzynə gizli,
Onu şərh etməjə gəlməzdi dili.
Qara gөz Zemfira janьnda əl'an,
O artьq dynjada azad bir insan.
Nəş'əli gynəş də başь ystyndə
Çənub hysny ilə parlajьr gyndə.
Gənçin yrəjini bəs nə aqrьdьr?
Bu hansь qajqьdьr, hansь aqrьdьr?
Tanrь quşu çihanda
Iş bilməz, qajqь cəkməz.
Həmişəlik bir janda
Өzynə juva tikməz.
Dallarьn yzərində,
Myrgylər uzun geçə;
Qanad calar jerində
Dan jeri sөkylynçə.
Dəm cəkə-cəkə dinlər
Tanrьnьn nidasьnь.
Ansьzьn şovqə gələr,
Başlar өz havasьnь,
Səfalь jaz gedinçə
Jaj gөzlənmədən gələr,
Pajьz hylul edinçə
Ajaz gələr, cən gələr.
Insanlara işkənçə,
Insanlara açьdьr,
Bu jerlər, qьş gəlinçə,
Quşlara jabançьdьr.
Gөj dənizdən o yzə
Isti dijara kibi

Ucarlar syzə-syzə
Gələn bahara kibi.

O da өz jerindən artьq qovulmuş,
Sanki bir kөcəri, bir qajǥьsьz quş
Bir umud juvasь hөrə bilməjir,
Gөnlyny hec şejə verə bilməjir.
Ona jollar acьq, yrəklər acьq,
Acьqdь yzynə hər bir alacьq.
O bytyn gynyny qalqьb jerindən
Haqqa tapşьrardь hər sabah erkən.
Nə həjat qorqusu, nə dərdi vardь,
Gөnlyndə ətalət hər vaqt jaşardь.
Sehirli bir şөhrət jьldьzь bə'zən
Onu caǥьrardь aqьb syzərkən,
Gah zinət, əjlənçə, jerli-jerində
Çanlanardь onun nəzərlərində.
Gurladь şimşəklər jalnьz başьnda.
Tufanlar altьnda, gənçlik jaşьnda;
O fəqət bunlarь sajmaz durardь,
Acьq havalarda myrgy vurardь.
Ona jabançьjdь baxtьn varlьǥь
Kor, məkirli baxtьn hөkymdarlьǥь.
Onun itaətkar qəlbilə bə'zən
Ehtiraslar neçə ojnardь bilsən!
Qajnajьb icində bu qasьrǥalar,
Dөjərdi gөksyny gyçly ɗalǥalar!
Onlar həmişəlik suşmuşmu coqdan?
Onlar ojanaçaq bir ɗaha: dajan!..



Z e m f i r a

Əzizim, təəssyf etməjirmisən
Ki, atьb hər şeji tərk elədin sən?

A l e q o

Mən nə tərk etmişəm?

Z e m f i r a

Bilirsən nəji;
Vətən evladьnь, bөjyk bəldəji.

A l e q o

Təəssyfmy, xajьr! Bir dəfə bilsən:
Bir dəfə kecsəjdi təsəvvyryndən
Boǥuq şəhərlərdə olan baǥlьlьq.
Orda jьǥьn-jьǥьn insanlar jazьq,
Gөrməzlər yzyny azad şenlijin
Sərin səhərlərdə bir cəmənlijin,
Tənəffys etməzlər xoş qoqusundan;
Orda həja qьlьr sevgidən insan,
Fikirlər əzilib atьlьr orda
Azadlьq alьnьb satьlьr orda.
Bytlərin өnyndə başlar əjilir,
Onlarьn istəji para və zənçir.
Mən nə tərk etmişəm: həjçan, xəjanət,
Vəsvəsə, şikajət, zylym, səfalət,
Parlaq qabalьǥьn ittihamьnь,
Dujǥusuz tə'qiblər izdihamьnь.

Zemfira

Joq, orda məhtəşəm salonlar da var,
Orda ipək kibi əlvan xalcalar,
Orda məçlis, ojun, çoşqun zijafət,
Zəngindir qьzlarьn taqdьqь zijnət!

Aleqo

Nədir şəhərlərin nəş'ə tufanь?
Sevdasьz bir jerdə məsərrət hanь!
Qьzlarsa... onlardan artьqsan ej qьz,
Bəzəksiz, inçisiz boqazaltьsьz!
Dəjişmə nazlь jar, məlahətli jar!
Mənimsə kөnlymdə bir diləjim var,
Sevgimi, gynymy səninlə bolmək,
Kөnylly syrgyndə eşqinlə gylmək.

Qoça

Sevirsən gөryrəm bizi icindən,
Cьqsan da devlətli bir xalq icindən;
Azadlьq xoş gəlməz bəlli coq kərə
Nazla, nəzakətlə bөjyjənlərə...
Bizim aramьzda bir rivajət var:
Çənubdan birini nə zamansa car,
Bizim tərəflərə etmişdi syrgyn.
(Bir zaman bilirdim indi bysbytyn,
Onun cətin adь cьqmьş jadьmdan.)
Bir az qoçalsa da o qərib insan,
Lakin çanlь, çavan bir qəlbi vardь,
Qabil, xoş nəfəsli bir nəqməkardь.



Səsində sularьn gurultularь...
Hər gөrən sevərdi bu ixtijarь.
Tuna sahilində jaşardь təkçə,
Kimsənin qəlbinə dəjməzdi tykçə.
Xalqь nəqməsinə məftun edərdi,
Bir şejin gөnlyndə olmazdь dərdi.
Kevrəkdi, yrkəkdi bir coçuq qədər...
Balьq tutardьlar, ov edərdilər,
Onun əvəzinə başqa adamlar.
Gəlinçə qara qьş, sovrulunça qar
Caj da, şaxta vurub buz baqlajьnça
Gejərdi kyrkyny myqəddəs qoça.
Bu joqsul həjatьn dərdinə nacar,
Təhəmmyl etmədi jazьq ixtijar.
Həjatь sərsəri, rəngi sapsarь...
Өzy dejirmiş ki, qəzəbli tanrь
Çəza vermiş ona çinajət ystə.
Bir niçat gөzlərdi o hər nəfəsdə,
Bu niçat gynyny gөzləjərək o;
Uzaq vətənini өzləjərək o,
Dolaşьb Tunanьn sahillərində,
Boqulub qəlbinin niskillərində,
Bədbaxt uzun-uzun fikir cəkərdi,
Gөzyndən od kibi jaşlar tөkərdi.
Ixtijar dynjadan edinçə rəhlət,
Kimsəjə etmişdi bөjlə vəsijjət:
Haman bu topraqa jaqьn olmajan,
Өlymilə belə sykun bulmajan,
Qonaqlar, bu jerdən onu alьb da
Qəmli gəmijimi gөmsyn çənubda.

### Aleqo

Oƣlunun tale'i bɵjləjmiş əlbət,
Ej mɵhtəşəm Roma, ej gur səltənət!
Tanrьlar, sevgilər myƣənnisi sən
Sɵjlə əçəb nədir bu şɵhrət, bu şə'n?!
Nəsildən-nəsilə kecən bir səda,
Məzar uƣultusu, alqьş səsimi?
Joqsa bir tystyly cadьr altьnda
Vəhşi qaracьnьn əfsanəsimi?

Iki il kecmişdi, gəzirdi hala
Həmən qaracьlar sakit taborla.
Hər jerdə əvvəlki geniş azadlьq,
Ejni qonaqçьllьq, ejni rahatlьq.
Qurtulub şəhərin zənçirlərindən
Aleqo olmuşdu onlar kibi şən.
Kecirir onlarla kɵcəri gynlər,
Bilməjirdi nədir təəssyf, kədər.
Ɵzy həmən adam... həmən ailə...
Kecən illərini anmajьr belə.
Alьşmьş qaracь məişətinə,
Alьşmьş onlarьn hər adətinə.
Sevir jataqlarьn kɵlgələrini,
Joqsul və ahəngli ləhçələrini.
Şirin çazibələr dujardь hər an
Onlarьn bu atil jaşajьşьndan
Ajь zaƣasьndan dyşərək uzaq,
Olmuş bu cadьra qьllь bir qonaq,
Kəndlərdə, jollarьn bir kənarьnda,
Moldavan həjəti jaqьnlarьnda,



Usul izdihamьn ɵnyndə indi
Nərildəjib, zənçir gəmirmədəjdi.
Əsaja sevkənib baqьrdь qoça,
Dəfini calьrdь tənbəl, aƣьrça.
Gəzdirib hejvanь burda həvəslə,
Aleqo oqurdu bir dadlь səslə.
Bir-bir adamlara jaqьnlaşьrdь,
Zemfira kɵnylly xərac jьƣьrdь.
Cɵkynçə geçənin qaranlьqlarь,
Ycy də bir jerdə pişirir darь;
Hər şej ɵz jerində, ixtijar jatmьş,
Cadьr qaranlьƣa, sykuta batmьş.

Qoça bədənində donan qanьnь,
Gynəşə verərək bir ləzzət alьr;
Qьzь oqur beşik janьnda mahnь,
Aleqo dinləjib rəngi saralьr.

### Zemfira

Kɵhnə ər, dəhşətli ər,
Doƣra məni, kəs məni.
Bьcaq olsun, od olsun,
Qorqutmaz hec kəs məni.

Səni gɵrmək istəməm,
Sənə coq nifrətim var.
Dərdindən ɵldyjym bir
Gənçə məhəbbətim var.

Aleqo

Sus artьq, oquma, usandьm, jetər!
Dinləmək istəməm vəhşi nəqmələr.

Zemfira

Dinləməjirsənmi? Өzyn bilərsən,
Nəqməni өzymcyn oqujuram mən.

Kəs məni, jandьr məni,
Acmam hyzurunda dil;
Kөhnə ər, dəhşətli ər,
O sənə tanьş dejil.

O bahardan tazədir,
Jaj gynlərindən sьcaq;
Mənə vermiş gənlyny.
Həm çavandьr, həm qocaq!

Mən onu oqşajьrdьm
Gecə vaqtь cəməndə!
Cal sacьna gylyrdyk
Uzaqdan o da, mən də!

Aleqo

Zemfira, usandьm, jetər!

Zemfira

Өjləmi,
Deməli anladьn mənim nəqməmi?

Aleqo

Zemfira!..



Zemfira

Sinirlən, өzyn bilərsən
Nəqməni sənincin oqujuram mən.

(Gedərək oqujur: Kөhnə ər, dəhşətli ər.)

Qoça

Jaqşь jadьmdadьr, jaqşь jadьmda,
Bizim zəmanədə cьqmьş bu hava,
Oqujur insanlar onu hər jerdə,
Oqunur tojlarda, əjlənçələrdə.
Kaqul[1] dyzlərindən kecərkən hamь,
Arvadьm Marjula bir qьş aqşamь,

Jelləjib qьzьnь oçaq janьnda,
Oqujurdu bunu өz zamanьnda.
Mənim xatьrьmdan kecən zamanlar
Tutulub, ystyny alьr dumanlar.
Çoq şejlər kecmişdir mənim başьmdan.
Bu nəqmə cьqmamьş hec jaddaşьmdan.

Hər şejdə susqunluq, sakit bir gecə;
Gөjlərdən bəzəjir aj inçə-inçə
Çənubun laçivərd yfyqlərini,
Daqьdьr ətrafa şəfəqlərini.
Zemfira qoçanь qaldьrьb dejir:
«Ataçan, Aleqo bərk inildəjir,
Sanki sьzьldajьr juqu icində.
Yrəjim cьrpьnьr qorqu icində».

1 Bessarabijada Tuna cajь qolu.

1014—2

М. Ф. Ахундов адына Азәрб... Республика ... китабханасы
Инв.
21463

Q o ç a

Sykutu hifz ejlə, ona dəjmə sən.
Bir rus rivajəti eşitmişəm mən.
Bu geçə vaqtьnda bir ev ruhu var.
Onun nəfəsini tənglədib boqar.
O ruh сьqьb gedər sabah olunça.
Gəl otur janьmda, darьxma bunça .

Z e m f i r a

«Zemfira!» dejərək рьсьldajьr o,

Q o ç a

Arajьr rө'jada səni Aleqo,
Onun gөzlərində, qьzьm, dujsana,
Çihan bir janadьr, sən də bir jana.

Z e m f i r a

Ona qarşь sevgim sonmyşdyr artьq.
Darqьnam, yrəjim istər azadlьq.
Mən daha... sakit ol, dinlə, ataçan,
Başqa bir ad сьqdь dodaqlarьndan.

Q o ç a

Nə ad, kimin adь?

Z e m f i r a

Bu səsi dinlə,
Bu qьrьq, bu boquq nəfəsi dinlə.
Onun iniltisi bytyn xətərdir!
Ojandьrьm onu!



Q o ç a

Mənçə hədərdir.
Qovma, qьzьm, qovma geçə ruhunu.
O gəlmiş, gedəçək.

Z e m f i r a

Bir sejr et onu:
Məni səsləjərək doqruldu hətta.
Sən jat, mən gedirəm, mehriban ata.

A l e q o

Hardajdьn?

Z e m f i r a

Atamla səhbət edirdim,
Hansь bir ruh isə, diqqət edirdim,
Rө'jada ruhunu inçitmədəjdi.
Sən məni qorqutdun, bilməm o nəjdi.
Diş qьçьrdadaraq məni ujquda
Caqьrdьn.

A l e q o

Gөryrdym səni ujquda.
Qorqunç xəjallarla juqum dolmuşdu.
Sanki aramьzda bir şej olmuşdu.

Z e m f i r a

Uqursuz rө'jajə gəl inanma coq.

Aleqo

Ah, mənim bir şejə inandьqьm joq.
Nə bu aqьr juqu, nə dadlь və'dən,
Hətta qəlbinə də inanmьram mən.

Qoça

Ej aqьlsьz coçuq nə olmuş, nə var,
Nəjcindir cəkdijin janьqlь ahlar
Burda insan azad, gojlər də ajdьn.
Gozəlliklə tapьr şohrət hər qadьn.
Aqlama qəm səni məhv edər bytyn.

Aleqo

Ataçan, o məni sevməjir, dyşyn!

Qoça

Əzizim sakit ol, o bir coçuqdur.
Sənin dərdinin də hec jeri joqdur.
Sən sevirsən onu, inçə, çətinçə,
Fəqət qadьnlarьn yrəji mənçə
Bənzər pək təbii bir əjlənçəjə.
Bir baq ystyndəki laçivərd gojə
Dolaşьb altьnda sərazad qəmər,
Ətrafa nurunu sacьr bərabər.
Hansь bir bulutun icinə girsə,
Onu işьqladьr, ordan kecirsə
Θzyny bir başqa bulutda, lakin
Orda da olamaz həmişə sakin.
Kim məkan gostərər ona gojlərdə,
Bujurub dejər ki, «dajan bu jerdə»
Kim çavan qьzlarьn qəlbinə dəjər;



Ançaq birini sev, sadiq ol dejər.
Sakit ol!

Aleqo

O məni sevərdi ençə
Mənə baş əjərdi o inçə-inçə.
Cəllər səssizliji icində birdik.
Uzun geçələri xoş kecirirdik.
Coçuq sevinçilə dolu bir yrək.
Bə'zən şirin-şirin kəkələjərək,
Gonyl oqşajьçь gylyşlərilə
Təskinlik veriçi opyşlərilə,
Qəlbimdən fikrimi vurub qovardь.
Onun mehriban bir qьlьqь vardь.
Kecmiş sədaqətlər indisə joqdur.
Ah mənim Zemfiram mənə sovuqdur.

Qoça

Qulaq as, cьqmamьş hələ jadьmdan,
Bir qissə sojləjim oz həjatьmdan.
Kecmiş zamanlarda Tunajь bilsən
Hələ mosqovlular titrətməmişkən,—
(Eh jenə cevrilib kecmişə daldьm
Kohnə qyssələri jadьma saldьm).
—Onda biz soltandan qorqardьq jaman
Akkermanьn jyksək qalalarьndan
Buçaqda[1] bir paşa hokym syrərdi;
Mən gənçdim gonlymyn hec joqdu dərdi;

[1] Bessərabijanьn çənubundakь səhra.

Jaşardьm qyssədən, qajqьdan uzaq,
Hənuz saclarьma dyşməmişdi aq.
Gəzəllər icində birisi vardь,
Mənə gynəşləri xatьrladardь.
Nihajət o gəzəl mənə ad oldu,
Ah mənim gənçlijim mənə jad oldu.
Bir an ulduz kibi tez aqdь, kecdi,
Sevgilim yzymə jan baqdь kecdi;
Bir il sevdi məni jalnьz Marjula
Bir dəfə rastlaşdьq başqa taborla.
Kaqul sularьna jaqьn çivarda.
Həmən səjlədijim qaracьlar da
Bizim daq dəşyndə cadьr qurdular,
Jalnьz iki geçə orda durdular.
Ycynçy geçəsi cьqьb getdilər,
Başqa bir iqlimə səfər etdilər.
Balaça qьzьnь mənə tərk etdi,
Varьb Marjula da onlarla getdi.
Mən sakit jatmьşdьm; səkərkən şəfəq
Ojandьm, eşimi gərmədim ançaq.
Caqьrdьm, izini gəzdim, aradьm,
Zemfira aqladь, mən də aqladьm.
O gyndən təklijə cəkilərək mən
Dynja gəzəlləri dyşmyş gəzymdən;
O gyndən bir qьza gənyl vermədim;
Tək qalьb kimsəjlə gyn kecirmədim.

### Aleqo

Bəs neçə oldu ki, tələsmədin sən,
Arvadьn dalьnça dyşmədin həmən



Vəhşi qaracьnьn, xain arvadьn
Kəksynə bir iti xənçər taqmadьn?

### Qoça

Nə gərək, bu gənçlik hərçaji bir quş
Sevgi zənçirlərə hacaq tutulmuş?
Sьrajla verilir hər kəsə şadlьq;
Olanlar bir daha olamaz artьq.

### Aleqo

Xajьr, mən onlardan dejiləm; ənçə
Kecmərəm haqqьmdan dəjyşməjinçə;
Yrəjim tutamaz bununla aram,
Intiqam alaram, əvət, intiqam!
Dyşmənim dənizdə əlimə kecsə,
Jatmьş olsa belə o kəməksizə
Qьjьb, dalqalara onu atardьm,
Qəhqəhələr cəkib, kamə catardьm.
Mənə uzun zaman onun dyşməsi
Andьrardь gylynç, dadlь bir səsi.

### Gənç qaracь

Bir daha, bir daha, bir dadlь busə!

### Zemfira

Qorqunçdur, qьsqançdьr ərim, gələrsə...

### Qaracь

Ajrьlьq eşqinə bir də, bir də gəl!

Zemfira

Əlvida, əlvida, сьqmadan əngəl.

Qaracь

Hacaq gəryşəriz səjlə bir daha?

Zemfira

Təpə dalьndakь məzar başьnda
Bugyn aj batarkən.

Qaracь

Inanmam, jalan!

Zemfira

Qac gəlir. Gələrəm əzizim, inan!

Aleqo ujujur. Fikrində ojnar,
Tutqun həjulalar, qorqunç rə'jalar.
Birdən сьqьrtilə qalqьr ujqudan,
Qьsqanç-qьsqanç baqьr əsir qorqudan.
Zylmətdə arajьr nəjsə əlləri
Sovuqdur janьnda dostunun jeri.
Onun sevgilisi indi uzaqda,
Qalqьb qulaq verir jenə jataqda.
Hər şej sakit əsir həjəçanьndan,
Sovuq bir tər aqьr onun çanьndan.
Ansьzьn atьlьr cadьrdan colə,
Araba janьnda gəzir hirs ilə
Hər şej rahat, cøllər sykut icində,
Aj da ki, gizlənmiş bulut icində.
Az-az ulduzlardan işьq sacьlьr,
Az-az şeh ystyndə izlər acьlьr,



Bir qurqana сьqan tanьş izləri
Tutaraq Aleqo gedir irəli.
Coq uzaqda dejil, joldan az kənar
Onun qarşьsьnda aqarьr məzar.
Onu syrykləjir təpəjə sarь,
Taqəti kəsilən syst ajaqlarь
Aqьr fikirlərlə qoşur irəli...
Əsir dodaqlarь, əsir dizləri...
Gedir... birdən-birə... ujqudur bəlkə,
Orda gəryr iki janaşь kølgə;
Jaqьn pьcьltьlar eşidir həman
O təhqir edilmiş ucuq qəbirdən.

Birinçi səs

Vaqtdьr.

Ikinçi səs

Dur bir az!

Birinçi səs

Vaqtdьr, jetər!

Ikinçi səs

Joq, joq, gəzləjəlim sabaha qədər.

Birinçi səs

Geçikdik.

Ikinçi səs

Sevgidə neçə yrkəksən,

Bir an

Ikinçi səs

Sən məni məhv edəçəksən.

Birinçi səs

Bir an da!

Ikinçi səs

Ja ərim ojansa mənsiz...

Aleqo

Xajьr, ojanmьşam өjləçə sənsiz.
Haraja? Dajanьn, coq tələsməjin;
Bu qəbir jaqşьdьr hər ikinizcin.

Zemfira

Əzizim, durma qac!

Aleqo

Gөzəl gənç, dajan!
Hajdь, jьqьl jerə!
(Bьcaqь ona saplar)

Zemfira

Aleqo!

Qaracь

Aman!..

Zemfira

Өldyrərsən onu, Aleqo, buraq,
Bytyn yst-başьn qandьr, birçə baq;
Ah sən nə ejlədin!?



Aleqo

Hec nə. Indi gəl
Eşqilə nəfəs al, eşqilə dinçəl..

Zemfira

Lə'nət gəlsin qara vəhşətlərinə,
Bu alcaq, bu açь dəhşətlərinə,
Səndən qorqmajьram.

Aleqo

Sən də өl, gəbər!..
(Vurar)

Zemfira

Өlyrəm sevərək.

Dan jeri søkylyr həp sacaq-sacaq,
Təpə arqasьnda əlində bьcaq,
Qьzьl qan icində Aleqo durmuş;
Qəbir daşlarьnьn ystə oturmuş,
Qarşьsьnda iki çənazə vardь;
Qatilin yzyndən dəhşət jaqardь.
Onun ətrafьnь almьşdь darqьn,
Həjəçana gələn qəmli bir jьqьn,
Orda qazьlьrdь dərin bir məzar,
Qəmli dəstələrlə gəlib qadьnlar,
Solqun gөzlərini, bu өlənlərin
Өpyb, cəkirdilər ah dərin-dərin,
Dilsiz kədərlərin icində orda,
Jalnьz oturmuşdu ixtijar ata;

Məhv olmuş qьzьna baqьrdь, birdən
Hər iki çənazə alьndь jerdən,
Gəmyldy topraqьn sovuq qojnuna
Aleqo uzaqdan baqьrdь buna.
Onlarьn ystynə sonunçu topraq,
Atьlarkən, o da səssiz qalqaraq,
Sarsьlьb qaranlьq cəkdy gəzynə,
Dyşdy daş ystyndən otlar ystynə.

Ixtijar jaqlaşьb dedi bu zaman:
«Buraq, buraq bizi qyrurlu insan!
Biz vəhşijiz, bizdə qanun, filan joq,
Zylymdən, e'damdan bizdə nişan joq.
Bizə nə inilti, nə qan gərəkdir;
Nə də bir qan təkən insan gərəkdir.
Sənçə, sənincindir jalnьz hyrrijjət,
Sənə lajiq dejil bu vəhşi qismət.
Sənin səsin bizə qorqunçdur, ançaq,
Bizim yrəjimiz şəfqətli, jumşaq.
Ətkəmsən, kinlisən; taboru tərk et,
Baqьşla bizləri, saqlьqla qal, get!..

Dejib kyjlə qalqdь hamь jerindən,
Qorqunç dyşərgənin vadilərindən,
Bu kecəri tabor jollandь getdi,
Uzaq steplərdə gəzlərdən itdi.
Bir jьrtьq xalcalь araba jalnьz.
Uqursuz səhrada qalmьşdь jalnьz.
Bə'zən bəjlə olur qьş qabaqьnda,
Dumanlь, ciskinli səhər caqьnda,



Qalqьb bir geçikən durna qatarь,
Ucarkən, cəllərdə çənuba sarь,
Əlym gylləsindən biri zəxm alьr,
Qьrьq qanadlarla sallanьb qalьr.
Geçəjdi hər tərəf, hər jer qaranlьq,
Qaranlьq araba janьnda artьq,
Kimsə od qalajьb oçaq salmadь,
Jatьb sybhə kibi nəfəs almadь.

## Epiloq

Çoşqun tərənnymyn sehri gyçyndən
Tutqun jaddaşьmda çanlanьr həmən,
Bytyn xatirəsi gəzdijim jerin,
Səfalь gynlərin, qəmli gynlərin.
Ordakь uqultu əksilməjirdi,
Dəhşətli qovqalar kəsilməjirdi,
Hakimlik hydudu cəkib də ruslar,
Ordakь Istambul qalmьşdь nacar,
Ordakь səsində kecmiş bir çəlal
Jyksəlirdi bizim çift başlь qartal.
Tuş gəldim o jerdə, o dijarda mən,
Dyşərgəsi qədim hydudlarda mən,
O sakit qaracь taborlarьna
Əmin azadlьqьn javrularьna.

Təbiətin jazьq oqullarь, siz,
Siz də zənn etməjin bəxtəvərsiniz!
Jьrtьq cadьrnьzьn altьnda jaşar
Sizin də çan sьqan aqьr ujqular,

Sizin də açьdьr gyzəranьnьz,
Cəllərdə kecəri sajəbanьnьz,
Jenə hər tərəfdə məş'um ehtiras,
Tale'in əlindən qurtulmaq olmaz.



*Yz qaвьqьnь rəssam VDOVENQO cəkmişdir*
*Texredaqtoru: Z. AQAJEV*

*Istehsalata verilmis 31|XII-36. Capa imzalanmьş 17|I-37. Cap listi 1. Kaqьz formatь 72x105.1/32. Bir cap listində getmiş hyrufat 66.880. Baş Mətbuat Mydirligi Mvvəkkilligi № 7850. Azərnəşr № 606. Tiraz 10000. Sifariş № 1014. Azərnəşr mətbəəsində вasьldь, 26-lar adьna „Kitaв Sarajь", Bakь, Əli Bajramov kycəsi.*

25 qəpik

Çildi 30 qəp.

Ру-21463

А. С. ПУШКИН

# ЦЫГАНЫ

АЗЕРНЕШР
Отдел художественной литературы
Баку — 1937